**Sevda Həsənova (qohumu): "Elcan qabiliyyətli, mərifətli oğlan olub. Ürəyi açıq olduğu üçün istəsən son tikəsini də verərdi. Kimləsə boş-boş mübahisə eləməyi, kiminsə arxasınca danışmağı, qeybəti sevmirdi. Zəhmətkeş idi. Pərakəndə nəsə etməkdən çəkinərdi. Xoşlayardı ki, hər şey planlı və dəqiq olsun".**

# El harayına can deyən şəhid ELCAN




## (On beşinci yazı)

**(Əvvəli ötən saylarımızda)**

Zahid Hüseynov (qohumu): "Ağıllı oğlan idi. Söz deyəndə, nəsə məsləhət verəndə qulaq asardı. Yersiz danışmaz, kiminsə sözünü ağzında qoymazdı. Düzdür, dəcəlliyi də var idi, amma qədərində".

Ədibə Hüseynova (qohumu): "Elcan mənim bacımın nəvəsi idi. Dünyaya gələndə mən də valideynlərinə gözaydınlığı vermişdim. O, adı kimi yaşadı, elinə canını verdi, elinin canı oldu. Ən uca ad şəhidlikdir ki, hər kişiyə qismət olmur. Elcan öz canı bahasına bu adı qazandı. Hamımız ona borcluyuq. Şəhidlər unudulmayacaq".

Sahil Hüseynov (qohumu): "Delavoy" oğlan idi. Sünilikdən qaçardı. Həmişə səmimi olmağa üstünlük verərdi: Mövlanənin sözü dilinin əzbəri idi: "Ya olduğun kimi görün, ya da göründüyün kimi ol". Acgöz, paxıl, xəsis deyildi. Kiməsə haqsızlıq edildiyini görəndə hirsindən yerəgöyə sığmazdı. Çalışırdı ki, ətrafındakılar hamısı ədalətli olsun".

Cəfər İsmayılov (qohumu): "Mərifətli, qanacaqlı oğlan idi. Rəhmətlik babası Cəmşid kişi kimi haqlının tərəfini tutardı. Yəni, həmişə ədalətli olmağı üstün sayardı. Kiminsə onun barəsində arzuolunmaz sözlər dediyini eşitməmişəm. İnsanların yaddaşında pozitiv və xoş əhval-ruhiyyəli olması ilə qalıb".

Zenfira İsmayılova (qohumu): "Ən çox işlətdiyi sözlərdən biri: "Sənə qurban olaram. Qadan alaram" - olub. Nəsə özünəməxsus xoş aurası vardı. Xalqımızın qeyrətini, namusunu qorumaq üçün şəhid olub. Bundan artıq nə deyə bilərəm ki? Halal olsun ona. Elcan əslində ölməyib. Axı, şəhidlər ölmür".

Cavid Dərələyəzli (qohumu): "Düzdür xətrini çox istəyirdim. Amma döyüşdə göstərdiyi fərasət və igidlikləri ona olan ehtiramımı birə-min apardı. Elcan öz canı bahasına "Vətən uğrunda" medalını qazanıb. Əsl vətənpərvər oğlan idi. Biz bu gün dinclikdə və rifah içində yaşayırıqsa, bunu məhz Elcan kimi cəsarətli oğullara borcluyuq".

Misir Həsənov (qohumu): Elcan barəsində nə qədər deyilsə, məncə azdır. Gözlərində qorxu yox idi. Yeniyetmə bir olsa da, onunla danışanda adama elə gəlirdi ki, orta yaşlı biri ilə söhbət edirsən. Ən çox işlətdiyim bir ifadə vardı: "Dayı gözlərini yesin". Elcana bunu deyəndə həmişə: "Qadan alaram, Misir dayı" - deyərdi". Nəriman Həsənov (qohumu): "Mehriban, istiqanlı idi. Uşaq vaxtlarında həmyaşıdları gününü oynamaqla keçirsə də, Elcan belə şeylərə az vaxt sərf edərdi. Böyüklər söhbət edəndə gəlib oturar və diqqətlə qulaq asardı".

Ramiq Eminov (manqa komandiri): "Cəsur oğlan idi. Elə bil şir ürəyi yemişdi. Gecənin qaranlığında bu postdan o biri posta həmişə mənimlə gedirdi. Yolda düşmən kəşfiyyatı, diversant ola bilərdi. Amma Elcanın gözündə qorxudan əsər-əlamət yox idi. Əminəm ki, düşmənlə qarşı-qarşıya çıxsaydı və əlində silahı olmasaydı dişi ilə düşməni didərdi. Vətənpərvər oğlan idi".

Mükafat Yaqubov (Elcanın döyüş yoldaşı olan şəhid Əliqismət Yaqublunun atası): "Oğlumla eyni gündə şəhid olub. Elcanla Əliqismət qardaş kimi idilər. Telefonla oğluma zəng eliyəndə həmişə Elcanı da maraqlanardım. Qabiliyyətli, mərifətli oğlan idi".

Arif Abbasov (dostu): "İmanlı insan idi. Allaha çox bağlıydı. Nəsə haqsızlıq görəndə: "Adamda Allah qorxusu olar", - deyərdi. Xeyirxah, əliaçıq idi. Yetim uşaq görəndə çox təsirlənərdi. İmkan daxilində onlara əl tutardı. Onun işlətdiyi: "Əl tutmaq Əlidən qalıb" - ifadəsi dilimizin əzbəri olub".

Nicat Məmmədov (dostu): "Dostluq etməyi bacarırdı. İndiki dövrdə hər kişi başqasını öz evinə qonaq belə gətirmir. O qədər nanəcib insanlar var ki. Amma Elcan qeyrətli oğlan idi. Dostunun anabacısını öz namusu sayırdı. Boş-boş əyləncə məclislərinə həvəs göstərməzdi. Gülərüz idi".

Rauf Məlikov (dostu): "Elcanla dostluğumuz çox dərinlərə getmişdi. Şübhə etmədən deyə bilərəm ki, ailəmi necə özümə arxa bilirəmsə, Elcanı da özümə elə arxa bilirdim. İndi mən öz dayağımı itirmişəm. Amma eyni zamanda qürur duyuram ki, bu itki boşuna olmayıb. Elcan və onun kimi igidlərimiz sayəsində Vətənimiz işğaldan azad edilib. Ona görə də həyatımın sonunadək Elcanla qürur duyacam".

İsmayıl Əsgərov (dostu): "Yaxın dostlarımdan olub. Sirrimizi, dərdimizi həmişə bölüşərdik. Doğma qardaşım olmasa da, Elcan qardaşım əvəzi idi. Açıq ürəkli olması, möhtac insanlara əl tutması ən çox xoşladığım xasiyyəti idi".

Etibar Həziyev (dostu): "Sadə oğlan idi. Yekəxana, təkəbbürlü adamlardan zəhləsi gedirdi. Nə vaxt məni kefsiz görsə, gəlib əhvalımı açardı. İmkan olduqca pul atışıb yetimlər evinə getməkdə o bizə örnək olmuşdu. Allaha çox bağlı idi. Bizim dərdimizə şərik olsa da, öz dərdini heç kimlə bölüşmürdü. Tez-tez gözləri yol çəkirdi. Elə dost çətin bir də qarşıma çıxsın. Çox mehriban idi".

Elvin Əlizadə (dostu): "Rəhmətlik Elcanla cəmi bir neçə il idi dostluq edirdik. Amma bu müddət ərzində hər dostda olmayan üstünlükləri onda görmüşəm. Adamın qanı ona tez isinirdi. Əvvəllər münasibətimiz elə də ürəkaçan olmayıb. Lakin vaxt keçdikcə Elcanla aramızdakı soyuqluq yoxa çıxmış və bu münasibət dostluğa çevrilmişdi".

Elcan Rəsulov (dostu): "Mərhumla adaş idik. Birbirimizi adımızla yox, sadəcə "adaş" deyə çağırırdıq. Elcan yaxşı dost, qardaş idi. Nəsə problemim olsaydı, bir zəngə dərhal özünü yetirərdi. Cəsarətli oğlan olduğu üçün bilirdim ki, dostunu dar ayaqda qoyub əsla qaçmaz. Elə bu cəsarətinə görə də şəhid oldu. O, düşmənin qabağından heç vaxt qaçmazdı. Təəssüf ki, namərdcəsinə raket-mərmi ilə şəhid etdilər onu.

Əziz Şahbazov (dostu): "Elcan həm yaxşı dost, həm də yaxşı sirdaş idi. Şəhid olub deyə demirəm, həqiqətən də, o, qızıl oğlan idi. Dinə inancında möhkəm idi. Neçə dəfə birlikdə İmamzadəyə getmişik. Kərbəla hadisəsinə dair xütbələri çox sevirdi. O vaxt zalım Yezidin İmam Hüseynə etdiklərini həzm edə bilmirdi. Hər zaman Allah yolunda şəhidliyin necə müqəddəs mərtəbə olduğunu deyərdi. Axırda ürəyindəki məqsədinə çatdı. Allah onu Peyğəmbər və Əhli-Beyt ilə məhşərə gətirsin!".

Bilal Fərəcov (qonşusu): "Gözlərimin qabağında böyüyüb. Çox ürəkli oğlan idi. Deyib-gülər, dostlarının, yaxınlarının könlünü sevindirərdi. Onun dostlarına kimsə haqsızlıq edərdisə, Elcan dərhal özünü çatdırardı. Demirəm, davakar olub, amma həyatdır, lazım olanda şir kimi vuruşurdu. Cəsur və qorxmaz idi. Atası onunla nəfəs alırdı. Allah yerdə qalanlara səbir versin".

Təranə Əliyava (qonşusu): "Elcan o qədər yaxşı uşaq idi ki, bütün qonşular onu öz əzizi kimi çox istəyirdi. Ona görə də onun ölüm xəbərini eşidəndə hamımız bu xəbərdən sarsıldıq, ağladıq, kədərləndik. İndi də ondan söhbət düşəndə gözlərim dolur. Özümü saxlaya bilmirəm. Onun gülərüzlüyü, mehribanlığı gözümün qabağında canlanır. Axı, o, mənim gözümün önündə böyüyüb, bütün qonşular kimi mən də onunla fəxr edirəm. Allah Elcana rəhmət eləsin".

Arzu Əliyev (qonşusu): "Mən hər insanın həyatda layiq olduğu məqama çatdığına inanıram. Mərd və qorxu bilməz Elcan da daxil olmaqla rəhmətliyin cəsarət və şücaətini öz gözlərimlə müşahidə etmişəm. Şəhidlik Elcanın çata biləcəyi və layiq olduğu ən uca zirvədir. O, indi təkcə Gəncənin yox, bütün Azərbaycanın fəxridir".

İmnar Əliyev (qonşusu): "Gözlərimiz önündə böyümüş Elcanın mərifətqanacağı onu hamımızın istəklisi etmişdi. Şəhid olduğunu eşidəndə necə kədərləndiyimi ifadə etmək çətindir. Amma şəhidliyin ən uca zirvə olması və şəhidlərin heç vaxt ölməməsi mənə təsəlli və təskinlik olur. O canı, qanı ilə bu ucalığı qazanıb. Düzdür, şəhid olub, lakin həmişə ürəyimizdə olacaq, adı Azərbaycan var olduqca, var olacaq!".

Əli Rzazadə (qonşusu): "Səmimi və mehriban oğlan idi. Tanıdığı hər kəsə yaxşılıq etməyə çalışardı. Elə bu xüsusiyyətinə görə də hamı tərəfindən sevilirdi. Varlığını bilməyimiz o qədər xoş idi ki, indi yoxluğuna öyrəşməyimiz çox çətin olacaq. Yeri əbədi behişt olsun".

Elnurə Məmmədova (qonşusu): "Elcanla bir binada yaşamışam. Onun hər hərəkəti, davranışı, gülüşü hələ də yaddaşımdadır. Çox mehriban və istiqanlı oğlan idi. Buna görə də bütün qonşular rəhmətliyin xətrini çox istəyirdi. Onun Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olduğunu eşidəndə həqiqətən də kövrəldim. Elə bil yalnız qonşuluqda yaşayan birini deyil, doğma, əziz bir insanı itirmişəm. Bu doğmalığı Elcan özü qazanmışdı".

Fərid Əhmədov (qonşusu): "Can çox şirin şeydir. Ondan keçmək hər oğulun hünəri deyil. Amma Elcan öz canını gözünü qırpmadan eli üçün verdi. Yadımdadır, bir dəfə mən öz adımın mənasını deyərkən "tək, yeganə" demişdim, rəhmətlik isə belə demişdi: "Mənim adımın mənası çox sadədir - Elin canı" Sanki adı ilə qürur duyurdu. Cəsarətli və qeyrətli oğlan idi".

Vüsalə Məmmədova (qonşusu): "Səxavətli adam idi. Qonşuluqda yetimlərə baxan bir qadın var. Təzə bilmişəm ki, Elcan sən demə, onlara həmişə dəstək olarmış. Məncə elə bunun özü onun necə geniş bir qəlbə sahib olduğunu isbatlayır. Pozitiv böyük idi. Mərhumun tabutu alqış və "Allahu Əkbər" sədaları ilə qarşılandı. Yəni, onun ölümü də bir qələbə simvolu daşıyırdı".

Günay Əliyeva (qonşusu): "Balaca vaxtlarımdan filmlərdə təqdim olunan qəhrəmanlara, tarixdə ad çıxarmış şücaətli şəxslərə həmişə qibtə etmişəm. Təəssüf ki, qəhrəmanların ətrafımızda ola biləcəyini heç düşünməmişəm. Elcan belə qəhrəmanlardan biri olub. O, nə filmə çəkilən personaj, nə də kitablarda haqqında bəhs olunan tanımadığım şəxs idi. Elcan tarix yazan oğul olub. Əminəm ki, gələcək nəsillər onun adını tarix kitablarında oxuyacaqlar. Çünki Elcan öz qanı ilə bu tarixi yazıb".

Elçin Alıyev (məktəb direktoru): "Mənim üçün şübhəsiz ki, bütün şagirdlər əzizdir, doğmadır. Onların təkcə məktəb həyatı yox, məktəbdənkənar həyatı da məni hər zaman düşündürür. Ona görə də uşaqları daha yaxından tanımağa çalışıram. Bu tanışlıq işlədiyim illər ərzində mənimçün nə qədər yeni-yeni kəşflər ərsəyə gətirib. Belə kəşflərdən biri də adını qürurla andığım Elcanla tanışlığımdır. Etiraf edək ki, indiki dövrümüzdə Elcan kimi oğullar təkcə ailələri və müəllimləri üçün deyil, bütün cəmiyyət üçün qürur mənbəyidir. Bir çoxları düşünür ki, yaxşı uşaq yalnız dərslərini yaxşı oxuyanlardır və təəssüflər olsun ki, onların əxlaqı, mənəvi keyfiyyətləri bir çoxlarını heç düşündürmür. Amma həyat göstərir ki, bunlar olmadan yüksək keyfiyyətli şəxsiyyət formalaşmır. Bax, Elcanda bütün bu yüksək keyfiyyətlər cəmləşmişdi. O, böyük-kiçik yerini bilən, müəllimlərinin hörmətini saxlayan, ailəsinin, dostlarının, yaxınlarının və həyat göstərdi ki, Vətənin qeyrətini çəkən mərd oğul idi. Bu gün biz, Elcan və Elcan kimilərin bu mərdliyi sayəsində güclü Azərbaycanımızın bir vətəndaşı kimi yaşayırıq. Allah ona və bütün şəhidlərimizə rəhmət eləsin".

*(Ardı var )*

*Elvin Arifoğlu*